# Vaxtdan ucada dayana bilmək haqqı



Görkəmli sənətkar, Xalq şairi Rəsul Rza hələ lap cavan yaşlarından həyatla ölüm arası yaşamın fəlsəfəsinə vaqif idi. Bilirdi ki, insan ömrünün hüdudları möhkəm kökləri ilə doğma torpağına, xalqına, vətəninə nə dərəcə bağlana bilmək qüdrətilə həmahəngdir. Ona görə də "Mən öləndə ağlamayın, gülməyin, nəyə lazım" yazırdı. "Bir ovuc torpaq üstə qoyun başımı, mən o torpağı sevmişəm" bəyanı edirdi hələ ötən əsrin 40-cı illərində...

Vaxt ötür, zaman irəliləyir. Ancaq böyük şairin ana torpağına olan sevgisinin əhd-peymanı hər bahar yenidən təzələnir. Hər il aprelin 1-də ustadın məzarını dərin qədirbilənliklə ziyarət edən söz adamları şahid olurlar ki, sevdiyi torpaq öz şair oğlunun xatirəsini sevə-sevə yaşadır. Aralarında silinib-pozulmaz sevgi bağları var: "Sədə, yaxşı...".



Dünən anım günü münasibətilə ustadın Fəxri Xiyabandakı məzarını ziyarət edən tanınmış söz adamları da daha çox bu barədə danışdılar. Millət vəkili, akademik Rafael Hüseynov Xalq şairi R.Rzanın bütün zamanlar üçün vaxtdan ucada dayana bilən şəxsiyyətindən və yaradıcılığından söz açdı. Xatırladı ki, Rəsul müəllimin və onun vəfalı həyat yoldaşı, unudulmaz Nigar xanım Rəfibəyli haqqında "İki ömrün işığı" adlı xatirələr kitabını bu böyük sənətkarların şəxsiyyətinə və yaradıcılığına olan oxucu, ziyalı münasibətindən dərin qürur hissi keçirə-keçirə çapa hazırlayıb.

AYB-nin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev də unudulmaz sənətkarların şəxsiyyət bütövlüyü, çoxşaxəli yaradıcılıq imkanlarından bəhs etdi, xatirələrini dilə gətirdi.

Şair Güləmayıl Murad böyük şairə həsr etdiyi şeiri oxudu.

Sonda Xalq yazıçısı Anar tədbir iştirakçılarına ailələri adından minnətdarlıq etdi.

*Sərvaz HÜSEYNOĞLU*